# TÜRKPA-nın komissiya iclası keçirilib

Mayın 27-də Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının "TÜRKPA üzv ölkələrində tibbi tullantıların idarə edilməsi" mövzusuna həsr edilmiş videokonfrans formatında 9-cu iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Səhiyyə komitəsinin sədri, TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov bildirib ki, ölkə Prezidenti tərəfindən Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ətraf mühitə və ekoloji problemlərin həllinə verilən önəmin daha bir göstəricisidir. Komitə sədri qeyd edib ki, BMT-nin İqlim Dəyişmələri üzrə 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar qərar verilməsi beynəlxalq ictimaiyyətin Azərbaycana göstərdiyi böyük etimadın təzahürü ilə yanaşı, ölkəmizin qlobal problemlərin həllində göstərdiyi fəal səylərə verilən dəyərdir.

O, TÜRKPA-ya üzv olan ölkələrin qarşısında duran qanunvericiliklərin yaxınlaşdırılması, ətraf mühit və sağlamlığın qorunması kimi aktual məsələlərə toxunub, TÜRKPA-nın komissiya iclasının ölkələrimiz arasında bu istiqamətdə əməkdaşlığa öz töhfəsini verəcəyinə inamını bildirib.

Sonra tədbirin moderatoru və komissiyanın sədri Əhliman Əmiraslanov 9-cu iclasın mövzusu və gündəliyi ilə bağlı fikirlərini bölüşüb.

TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması Komissiyasının sədr müavini Ahmed Zenbilci, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er və komissiya üzvləri çıxış edərək iclasın mövzusu ilə bağlı fikirlərini bölüşüblər.

İclasda TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov "TÜRKPA üzv dövlətlərində tibbi tullantıların idarə edilməsi"nə dair komissiyanın tövsiyə qərarının layihəsini təqdim edib.

İclasın gündəliyindəki "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" model qanun layihəsini Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev təqdim edib. O, model qanun layihəsində tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması məsələlərinin necə tənzimlənməsi, sənədin əsas məqsəd və hədəfləri barədə məlumat verib.

Sonra parlamentarilər komissiyanın 10-cu iclasının mövzusunu müəyyən ediblər.

***"Azərbaycan"***

---

Azərbaycan.- 2024.- 28 may, № 111.- S.7.